# QARABAĞ VƏ ŞƏRQİ ZƏNGƏZURDA EKOLOJİ TURİZMİN MÖVCUD VƏZİYYƏTİ

**Şəlalə Əzizova**

*AR ETN İqtisadiyyat İnstitutu, Bakı*
*aydinova.shalale97@gmail.com*

Müasir dövrdə turizm ölkələrin iqtisadiyyatında mühüm rol oynayan bir sektordur. Dünyanın əksər ölkələrində turizm sahəsinin yüksəlişi iqtisadiyyat sektorlarına birbaşa öz təsirini göstərir. Azərbaycanda isə turizmin mövcud vəziyyətinə nəzər saldıqda görərik ki, bu sahə son illərdə daha dinamik inkişaf edir. Ölkədə turizmin inkişafı üçün coğrafi mövqe, mülayim iqlim, mədəni obyektlərin çoxluğu, inkişaf etməkdə olan infrastruktura dövlət dəstəyi müsbət faktorlar hesab olunur.

Məhz turizm sahələrindən biri kimi ekoloji turizm də daima inkişaf edən və perspektivli sahədir. Ekoloji turizm dayanıqlı turizm növü kimi, təbiət ərazilərinə səyahət etməklə həyata keçirilən və regional sosial-iqtisadi inkişafa yönəldilən fəaliyyət növüdür. Bununla yanaşı, ekoloji turizmin inkişafı təbii aləmlə və təbii ehtiyatlarla sıx bağlıdır. Bu baxımdan Azərbaycan Respublikasının ərazisinin təbii sərvətlər və ehtiyatlarla zəngin olması, habelə turizm sahəsinə dövlət dəstəyi bütövlükdə ekoloji turizmin öyrənilməsini və təhlil edilməsini zəruri edir.

Ulu Öndərin həyata keçirdiyi siyasət nəticəsində Azərbaycanda bir çox parklar, meşələr, istirahət mərkəzləri yaradılmışdır. Azərbaycan torpaqlarının Ermənistan tərəfindən işğal edilməsi həmin ərazilərin flora və fauna növlərinin məhfinə səbəb olmuşdur. Məhz Qarabağın əsrarəngiz təbiəti ermənilər tərəfindən ekoloji terrora məruz qalmışdır. Ekoloji terror dedikdə konkret ölkə tərəfindən və ya şəxs tərəfindən digər ölkənin flora və faunasına zərər yetirməklə qəsdən vurulan ziyan nəzərdə tutulur.

İşğaldan əvvəl Qarabağın ərazisinin 36%-i meşələrdən ibarət olmuşdur. Kəlbəcər, Laçın, Xankəndi, Ağdam, Şuşa, Füzuli, Xocavənd, Cəbrayıl, Zəngilan, Qubadlı əraziləri qəsbkar ermənilər tərəfindən dağıdılmış, qəsdən yanğınlar törədilərək meşələri yandırılmışdır. İşğal altında olan ərazilərimizin azad edilməsi zamanı Şuşada ermənilər tərəfindən istifadəsi qadağan olan sursatların tətbiqi nəticəsində ətraf mühit çirklənməyə məruz qalmışdır. Ağ fosfor bombalardan istifadə etməklə ermənilər flora və faunaya külli miqdarda ziyan vurmuşdur.

İkinci Qarabağ Müharibəsi zamanı torpaqlarımız mənfur düşmənlərdən azad edildikdən sonra, bu ərazilərdə intensiv bərpa işlərinə başlanılmışdır. Belə ki, Qarabağın təmiz havasını, gözəl təbiətini, əsrarəngiz resurslarını və zənginliyini nəzərə alaraq və bu resurslardan səmərəli istifadə edərək işğaldan azad edilən ərazilərimizi ekoturizm mərkəzlərindən birinə çevirmək olar. Eləcə də, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında ekoloji turizmlə bağlı mövcud problemləri həll etməklə turist axınını artırmaq, eləcə də burada yaşayan yerli əhalini işlə təmin etmək mümkündür.

Kəlbəcərə nəzər salsaq, buranın zəngin flora və fauna ehtiyatlarına sahib olduğunun şahidi olarıq. Hündürlüyü 3724 m olan Camışdağ və hündürlüyü 3616 m olan Dəlidağ Kəlbəcərin ən uca yüksəklikləridir. Kəlbəcərin turizm sahəsinin inkişafı üçün əlverişli relyefi, iqlimi, təbiəti, zəngin mineral suları mühüm əhəmiyyət kəsb edir. Həmçinin kənd təsərrüfatında heyvandarlıq və əkinçiliyin inkişafı burada ekoturizmin bir növü olan aqroturizmin inkişafına şərait yaradır. Kəlbəcərin yüksək dağlıq ərazilərindən isə ekoturizmin digər növü olan yaylaq turizminin inkişafına şərait yaradır. Kəlbəcərdə meşələrin ümumi sahəsi 30 min hektara bərabərdir.

Qarabağın ən gözəl guşələrindən biri, qədim tarixi və füsunkar təbiəti ilə göz oxşayan abidələri, münbit torpaqları ilə tanınan Füzulini Ərgünəş dağı, Quruçay, Köndələnçay, Qozluçay və Çərəkən çayları daha da füsunkar edir. Füzuli rayonunda ekoloqlar tərəfindən 62 inzibati ərazi vahidində ekoloji monitorinq aparılıb və dəhşətli bir mənzərə ilə qarşılaşıblar. Arazboyu ərazilərdə aparılan monitorinqdə bütün evlər, binalar və tarixi abidələrin dağıdıldığına, tut, qovaq, çinar, şam və meyvə ağaclarının kəsildiyinə, bəzi yerlərdə isə qiymətli ağacların yandırıldığına şahid olublar.

Ermənistanın işğalı zamanı Füzulidə meşə fonduna aid olmayan 5688 ədəd ağac və kolun, 124 hektar meşə sahəsindən 2 hektarı məhv edilib. Ermənilər burada olan nadir təbiət abidələrinə də qəsd ediblər, belə ki, 850-1000 il yaşı olan 152 ağacdan 131-ni kəsiblər. Hətta cinayətin izini örtmək üçün köklərini də yandırıblar. Bu ağaclar sadəcə ölkəmiz üçün deyil, eləcə də bütün dünya üçün qiymətli mədəni irs idi. Yaşı əsrlərə bərabər olan bu qiymətli ağacların məhv edilməsi böyük miqyaslı ekoloji terror idi.

Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının ekoturizm potensialını şərtləndirən amillərdən biri də bu ərazilərin böyük rekreasiya əhəmiyyətinin olmasıdır. Qarabağın rekreasiya əhəmiyyətindən danışarkən müalicəvi mineral sularımızı da qeyd etməliyik. İşğaldan azad edilmiş ərazilərdə böyük müalicə əhəmiyyəti olan 120-dək müxtəlif tərkibli mineral su yataqları var. Kəlbəcər, Laçın, Şuşada isti su ehtiyatları kurort-müalicə kompleksinin yaradılması üçün əlverişli təbii amillərdir. Azərbaycanda olan mineral suların ümumi ehtiyatının 33%-i Kəlbəcər və Laçının payına düşür. Şuşada Turşsu, Şırlan, Kəlbəcərdə İstisu, Qoturlu, Laçında İlıqsu əvəzedilməz nemətdir. Həmçinin Laçında və Zəngilanda şəfalı termal su mənbələri da mövcuddur.

Qarabağ İqtisadi Rayonunun Tərtər rayonunda Suqovuşan qəsəbəsi də ekoturizm inkişafını dəstəkləyən ərazilərdən biridir. Burada hələ Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə 1976-cı ildə su anbarı inşa edilmişdir. Qəsəbənin saf dağ iqlimi, Tərtərçayın kənarında yerləşməsi ekoloji turizm üçün əlverişlidir. Burada aparılacaq bərpa işləri üçün ilk növbədə ərazinin minalardan təmizlənməsi, abadlıq işlərinin aparılması, bitkilərin əkilməsi nəzərdə tutulub. 2023-cü ilin oktyabr ayının 15-də Suqovuşan istirahət parkı açılıb.

Şuşanın adı dillərdən düşməyən Cıdır düzü, İsa bulağı, Çətir şəlaləsi ekoturizm üçün əlverişli infrastrukturlardır. Şuşanın əsas simvollarından olan İsa bulağı tam bərpa edilib. İsa bulağı dəniz səviyyəsindən 1600 metr yüksəklikdə yerləşən səfalı istirahət guşəsidir. Çətir şəlaləsi isə el arasında Şır-şır şəlaləsi kimi də tanınır. Şəlalədən axan su Daşaltı çayına tökülür. Bütün bu faktlar Qarabağda və Şərqi Zəngəzur iqtisadi rayonlarında ekoturizmin inkişafı üçün böyük potensial olduğunu göstərir. İşğaldan azad olunmuş ərazilərdə Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə sıfırdan başlayan və çox böyük əraziləri əhatə edən genişmiqyaslı quruculuq işlərində ekologiyanın bərpası proqramları da əhəmiyyətli yer tutur. Qarabağın təbiətinin gözəlliyi, havası, suyu, mineral bulaqları, meşələri otuz ilə yaxın xain düşmən tərəfindən zəhərlənsə də, yenidən bərpa edilir. Azad edilmiş ərazilərdə torpaq-iqlim şəraiti nəzərə alınaraq, Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən ümumilikdə 160 hektara yaxın sahədə 121 min 420 ədəd ağac tingi əkilib, 3 min kiloqram palıd və Şərq çinarı toxumu səpilib, yerüstü su ehtiyatlarının qiymətləndirilməsi məqsədilə 10 çay üzərində 11 hidroloji avtomat stansiya quraşdırılıb. Şuşa, Kəlbəcər, Ağdam, Zəngilan və Füzuli ərazilərində 5 meteoroloji stansiya quraşdırılıb.

Bunlarla yanaşı işğaldan azad edilmiş ərazilərdə meşəsalma işləri ilə bağlı "2022-2026-cı illər üzrə Meşə Fondunun Bərpası Proqramı" hazırlanmışdır. Proqram çərçivəsində Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının ərazisində 30000 hektara yaxın meşə fondu sahəsində meşələrin bərpa edilməsi tədbirləri nəzərdə tutulur. Meşəsalma ilə bağlı planlaşdırılan ərazilər əvvəlcə minalardan təmizlənir, sonra genişmiqyaslı meşə əkinləri həyata keçirilir. Eyni zamanda işğaldan azad edilən ərazilərdə yeni milli parkların yaradılması da nəzərdə tutulub və artıq bu parkların yerləri də müəyyən edilib. Bunlardan 20 min hektar Laçın rayonu, 20 min hektar Qubadlı rayonu, 107 hektar Bəsitçay qoruğu ərazisi, 2000 hektar Daşaltı dövlət təbiət qoruğu və Arazboyu təbiət yasaqlığının əraziləri üçün nəzərdə tutulub.

İşğaldan azad edilmiş ərazilərimiz üçün nəzərdə tutulmuş "Böyük Qayıdış" siyasəti Azərbaycan dövlətinin əsas proritetlərindəndir. Bu siyasət çərçivəsində qarşıda duran əsas vəzifələrdən biri də, məhz həmin ərazilərdə təbii və keyfiyyətli ekosistemin, bioloji müxtəlifliyin, həmçinin nadir və itməkdə olan bitki növlərinin bərpa edilərək sağlamlaşdırılmasıdır. İşğaldan azad olunan ərazilərdə ətraf mühitin sağlamlaşdırılması və təbii sərvətlərdən dayanıqlı istifadənin təmin edilməsi, xüsusi mühafizə olunan təbiət əraziləri şəbəkəsinin, nadir təbiət komplekslərinin və obyektlərinin təbii vəziyyətdə qorunub saxlanılması istiqamətində genişmiqyaslı tədbirlər davam etdirilir. Bu ərazilərdə müasir yanaşmaların tətbiq edilməsi əsasında unikal meşə fondunun və mühafizə olunan təbiət komplekslərinin fəaliyyətinin bərpa edilməsi bütövlükdə Qarabağ və Şərqi Zəngəzurun "yaşıl zona"ya çevrilməsinə, turizmin inkişafına şərait yaradacaqdır.